Ədəbiyyat qəzeti

24 oktyabr 2020-ci il


# Hardakı keşikdəyəm - Vətən məndən başlayır!



Fəxrəddin ƏSƏD

## Əsgər məktubları

### I

Mən döyüşə gedirəm
salamat qal, əzizim.
Yaman tələsik oldu
son görüşümüz bizim.

Məndən xəbər çıxmasa,
zəng etməsəm qınama.
De ki, sağ-salamatam,
təskinlik ver anama.

Bayrağa bürünüb gəz
məni xatırlayanda,
yenə döyüşə girdim
gülüm, sonam, əlvida!

### II

Gülüm, qoxunu duydum,
sanki elə yaxınıq.
Qolum üstə yatırsan,
qaçırmıram yuxunu!

Mən döyüşə gedəli
sən orda səksəkəli.
Tərsinə yoz nə görsən,
nə vaxt yuxuna girsəm.

Burda savaşa girən
bu gözəlim məmləkət,
bu kar, bu kor dünyadan
tələb edir ədalət.

Qayalar silkələnib
düşmənləri daşlayır.
Hardakı keşikdəyəm -
Vətən məndən başlayır!

### III

Artıq neçənci gündür
göydən, sanki his damır.
Uduzub, bilir düşmən,
təslim olmaq istəmir.

Uzaq dalğın üfüqlər
rəngdən rəngə boyanır.
Divanə ruhlar bu gün
qurd səsinə oyanır.

ömür budur gözəlim,
gün budur naxış-naxış.
Əsgər xəyallarıtək
həsrətlə yağır yağış.

Həsrətlə yağır yağış,
mərmidən ağır yağış.
Vətən savaşındayam,
mən savaşdayam - alış!

### IV

Mənim dilanlamazım
görən, indi neynirsən?
Hamının acığına
yenə şıq geyinirsən?

Biləydim əlindəmi
mən bağışlayan yaylıq?
Uzun körpü kimidir
aramızda ayrılıq.

Hələ ki salamat qal,
uğurlar dilə mənə.
Döyüşdəyəm - güzəşt yox
acımasız düşmənə!

*02.10.2020*

## Xarı bülbül

*Bir dostumla iş otağımda masaya sərdiyim xəritədə, qüdrətli ordumuzun - igid əsgərlərimizin qarış-qarış azad etdiyi yerləri işarələyirdik. Söz Şuşadan düşdü,.. xəyal məni çəkib uzaqlara apardı. Gecə yuxuma Xarı bülbül gəldi...*

Tanrı ona sığal çəkib,
bədirlənmiş Aya dönüb.
Gündüzləri nağıl kimi
gecələr röyaya dönüb!

Hardansa qəfil yel əsir,
məni görüb tel-tel əsir.
Torpağın anası kimi
göyə çatmağa tələsir.

İndicə uçub gedəcək -
yarı ağrı, yarı bülbül.
Uzun illərin həsrəti,
küsüsüdür Xarı bülbül.

*15.10.2020*

## Vətən

Səndən gözəli olarmı,
heç olarmı bu dünyada?
Vətən! Vətən, canım, gözüm,
Bu sevda, başqa bir sevda.

Sən mənim qürur yerimsən,
Sən mənim hüzur yerimsən,
Nə desəm, nə söyləsəm də
Sən Qalibsən - yenilməzsən!

*17.10.2020*